# AZƏRBAYCAN RESPUBLİKASI
# DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI

## Q Ə R A R

**№ 2**

**Bakı şəhəri** **29 mart 2018-ci il**

Apellyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Hikmət Aytac Fəxrəddin qızının Dövlət Statistika Komitəsi aparatında Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin Qeyri-dövlət xarici borc və beynəlxalq investisiyalar statistikası sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2018-ci il martın 02-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Hikmət Aytac Fəxrəddin qızı Dövlət Statistika Komitəsi aparatında Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin Qeyri-dövlət xarici borc və beynəlxalq investisiyalar statistikası sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2018-ci il 11 yanvar tarixində elan edilmiş müsabiqə üzrə müsahibədə iştirak etmişdir. Müsahibə 2018-ci il martın 02-də Dövlət Statistika Komitəsi aparatının Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi müdirinin müavini Qeyri-dövlət xarici borc və beynəlxalq investisiyalar statistikası sektorunun müdiri Məlaknisə Məhərrəmova, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Şükürov Əlişirin Səyədulla oğlu və müstəqil ekspert Saleh Mövlamovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Hikmət Aytac Fəxrəddin qızına müsahibə komissiyasının üzvlərindən M.Məhərrəmova və Ə.Şükürov 14, S.Mövlamov isə 15 bal vermiş və nəticədə iştirakçı 14.3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1474 nömrəli Fərmanının 3.4.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 05.03.2018-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasında daxil olmuş şikayətlə əlaqədar müsahibə komissiyasının üzvlərinin rəyləri nəzərdən keçirilmişdir. Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Ə. Şükürovun rəyinə əsasən namizədin peşə hazırlığı və ümumi dünyagörüşü orta səviyyədədir, müsahibə proqramı üzrə bilikləri qənaətbəxşdir. Müstəqil ekspert S.Mövlamovun rəyinə əsasən namizədin müsahibə proqramı üzrə nəzəri bilikləri qənaətbəxşdir, lakin peşə hazırlığı aşağıdır. Apellyasiya Şurasının iclası zamanı Dövlət Statistika Komitəsi aparatının Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi müdirinin müavini Qeyri-dövlət xarici borc və beynəlxalq investisiyalar statistikası sektorunun müdiri Məlaknisə Məhərrəmova bildirmişdir ki, namizədin nəzəri bilikləri və ümumi dünyagörüşü qənaətbəxşdir, vakant vəzifənin tutulması üçün zəruri olan digər keyfiyyətlərə malikdir, nüfuzetmə və ünsiyyətqurma qabiliyyəti yüksədir, lakin namizədin vakant vəzifənin tutulması şərtlərinə uyğun olaraq nəzəri biliklərini tətbiqetmə bacarığı zəifdir. Bu da namizədin iş təcrübəsinin olmaması ilə əlaqədardır.

Müsahibə komissiyası üzvlərindən S.Mövlamov, M.Məhərrəmova və şikayətçi A.F.Hikmətin iştirakı ilə aparılmış müzakirələri, eləcə də namizədin müsahibə proqramı üzrə biliklərini, ümumi dünyagörüşünü, nüfuzetmə və ünsiyyətqurma qabiliyyətini, öyrənmə potensialını, təşəbbüskarlığını, ixtisasını və statistika sahəsinə olan marağını nəzərə alaraq, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 11 fevral 2016-cı il tarixli 7/t №-li əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası haqqında Əsasnamə"nin 7.3.1-ci yarımbəndini rəhbər tutaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Şikayət təmin edilsin, Hikmət Aytac Fəxrəddin qızının Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin Qeyri-dövlət xarici borc və beynəlxalq investisiyalar statistikası sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2018-ci il martın 02-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi ləğv edilsin, namizəd vəzifəyə uyğun hesab edilsin.
2. S. Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.
3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**